# Hamımızın bir vətəni var - Azərbaycan

Zamanın ağır sınaqlarına tuş gələn, min bir əzab-əziyyətlərə qatlaşan, fəlakətlərə düçar olan, qəddar hökmdarların, qaniçən qəsbkarların, acgöz istilaçıların at oynatdıqları, qanı su yerinə axıtdıqları, misli görünməmiş vəhşiliklərlə sinəsinə çalın-çarpaz dağ çəkdikləri ulu məmləkət. Doğrana-doğrana, itirə-itirə bu günümüzə çatmış Azərbaycan! Parçalanmış qartal görkəmini nəhayət ki, bütövləşdirə bildin, haqqını sökə-sökə geri aldın. İtirdiklərin olsa da, qazandıqların daha çoxdur: qalib ölkə, qalib xalq, qalib lider, qalib ordu... Sən dərs verdin erməniyə, elə havadarları da dərsini aldı, bizə də dərs oldu: anladıq ki, üstündə dayandığımız torpaq bizimdir. Və bu torpaq millətimizin-azərbaycanlıların mövcudluğunun, varlığının təsdiqidir. Onu qorumalıyıq!..

Azərbaycan müstəqillik dövründə milli dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə etdi, özünün hüquqi-siyasi, sosial-iqtisadi dayaqlarını möhkəmləndirdi, iqtisadi potensialına, demokratik inkişaf səviyyəsinə, beynəlxalq aləmdə tutduğu mövqeyə görə regionun lider dövlətinə çevrildi. Qazanılmış nailiyyətlər ölkə daxilində milli birliyə, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə zəmin yaratdı. Ölkəmizin irəliyə doğru atdığı hər bir addım, qazandığı nailiyyətlər dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı daha da ruhlandırdı. Soydaşlarımızın müstəqil dövlətimizə inamı və işıqlı sabaha ümidləri onların Azərbaycan Respublikasının milli maraqları ətrafında sıx birləşməsinə vəsilə oldu.

Qloballaşan dünyanın reallıqları diaspor və lobbiçilik quruculuğu sahəsində təxirəsalınmaz tədbirlər görülməsini vəzifə kimi qarşıya qoydu. Ölkələr və xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, beynəlxalq siyasətdə diaspor və lobbi təşkilatlarının rolunun artması ölkəmizin də bu prosesə qoşulmasını prioritet məsələyə çevirdi.

Azərbaycan Prezidenti İlham Əliyev dünya azərbaycanlılarının qurultaylarının birində çıxışı zamanı demişdir: "Biz öz tədbirlərimizi görməliyik, biz möhkəmlənməliyik. Azərbaycan öz iqtisadi potensialını, siyasi imkanlarını tam şəkildə işə salır. Biz hər istiqamətdə çox sürətlə düşünülmüş proqram və konsepsiya əsasında işləyirik. Qeyd etmək istəyirəm ki, bu istiqamətdə Azərbaycan diasporunun çox böyük rolu var. Mən istəyirəm ki, həm Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha güclü olsun. Məsələn, mən istəyirəm ki, azərbaycanlılar yaşadıqları bütün ölkələrin siyasi həyatında daha fəal rol oynasınlar. Siyasi partiyalara üzv olsunlar. Çalışsınlar ki, o ölkələrin qanunvericilik orqanlarına seçilsinlər. Bu, bizim mövqelərimizi möhkəmləndirir".

**_Prezident bu fikri 2006-cı il martın 16-da keçirilmiş Dünya Azərbaycanlılarının II Qurultayında vurğulayıb_**

İndiyədək dünya azərbaycanlılarının 3 qurultayı keçirilib. II qurultay 2006-cı il martın 16-da Bakıda təşkil edildi və burada dünyanın 49 ölkəsindən 1218 nümayəndə, 385 nəfər qonaq iştirak edirdi. Azərbaycanda diasporun inkişafı yolunda növbəti mərhələ olan bu mühüm tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçildi.

Ümumiyyətlə, Azərbaycan diasporunun və lobbisinin əsasının qoyulması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider ABŞ-a ilk səfərindən sonra Azərbaycan diasporu barədə demişdir: "Mən xarici ölkələrə səfərlərim zamanı diaspora üzvlərini bir yerə toplamağa cəhd göstərirəm. Mən bunu Amerikada da həyata keçirmək istədim. Çikaqoda toplantıya 35 nəfər gəldi. Eləcə də Parisdə və Londonda da toplantıya əksəriyyəti İran azərbaycanlıları olan 35-40 nəfər qatıldı. Bu, diasporadırmı?.. Baxın, torpaqları işğal edilən bizik, şəhid verən bizik, illərdir vətənsiz yaşayan bizik, ancaq günahkar olan da bizik. Bunun səbəbi aydındır. Amerikada 250 milyon insan yaşayır. Bunun bir milyonu ermənidir. Sayları çox azdır. Ancaq mövqeləri, vəzifələri etibarilə ictimai fikri öz məqsədləri ətrafında birləşdirə bilirlər. Biz mübarizəmizdə haqlı olduğumuzu kəskin şəkildə sübut etməliyik... Unutmayın, ermənilərə silah verənlər və maddi yardım göstərənlər qədər bizə yardım edən yoxdur... Biz lobbimizi bütün dünyada qurmalıyıq".

O zaman xarici ölkələrdə yaşayan və müəyyən bir fəaliyyət sahəsi ilə məşğul olan soydaşlarımızı bir araya gətirmək, onların vasitəsilə haqq səsimizi dünyaya çatdırmaq çox mühüm məsələ idi. Mühüm olduğu qədər də məsuliyyətli olan bu işin həlli xaricdə Azərbaycanın əleyhinə aparılan erməni təbliğatının qarşısına sədd çəkə bilərdi. Bütün bunları nəzərə alan vətənpərvər insan, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2002-ci il iyulun 5-də "Xaricdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzaladı. Bu Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsinə, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatına zəmin yaratdı. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti bu sahədə olan problemlərin aradan qaldırılmasına və Azərbaycan diasporunun fəaliyyətinin milli maraqlar zəminində qurulmasına imkan verdi.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının ilk Qurultayı keçirildi. Qurultayda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvləri müəyyənləşdirildi və Heydər Əliyev şuraya sədr seçildi. Dünya Azərbaycanlılarının I Qurultayında xaricdə yaşayan soydaşlarımızın əlaqəli şəkildə fəaliyyəti müzakirə edildi. Bu əlaqələrin qurulması Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasına həvalə olundu.

2001-ci il dekabr ayının 27-də isə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 2003-cü ildə Azərbaycan Prezidenti seçilən İlham Əliyev bu istiqamətdə başlayan prosesin davamlı olması məqsədilə bir sıra tarixi sənədlər imzaladı. 2006-cı il 8 fevral tarixli Sərəncama əsasən 2006-cı il mart ayının 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayı keçirildi. Qurultayda çıxış edən Prezident İlham Əliyev xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğılarını, onların birliyi, təşkilatlanması sahəsindəki mövcud vəziyyəti təhlil etmək, ölkəmizlə əlaqələrinin daha da möhkəmlənməsi, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələrdən danışdı: "...Bizim gücümüz sizin fəaliyyətinizdir. Sizin gücünüz Azərbaycan dövlətinin güclü olmasıdır. Azərbaycan dövləti nə qədər güclü olsa, sizin mövqeləriniz də bir o qədər güclü olacaqdır... Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var - Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək...".

Həmin tarixi hadisədən 16 il keçir. Bu müddət ərzində mühüm qərar və qanunların qəbul edilməsi, eləcə də dövlət başçısının xarici səfərləri zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşləri, tövsiyə və məsləhətləri xarici ölkələrdə diasporumuzun mütəşəkkil cəmiyyət kimi formalaşmasına və inkişafına xüsusi təkan verdi. Bu gün diasporumuz öz nüfuz və mövqeyi ilə seçilir.

İndi dünyanın müxtəlif ölkələrində 410-dan çox Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. Ötən illərdə bu təşkilatlar Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqla yanaşı, mədəniyyətimizi, adət-ənənələrimizi, xalqımıza məxsus gözəl dəyərləri təbliğ edib, Qarabağ probleminin həlli istiqamətində müəyyən iş görüblər. Diaspor təşkilatlarımızın müxtəlif ölkələrdə Qarabağla bağlı keçirdiyi tədbirlərdə həmin ölkələrin hökumət və qanunverici orqanlarının, siyasi partiya və ictimai təşkilatların nümayəndələri də iştirak edib, doğru, düzgün məlumatlandırılıblar. Azərbaycan diasporu 44 günlük Vətən müharibəsi dövründə də gücünü nümayiş etdirdi. İnanırıq ki, diaspor təşkilatları daha mütəşəkkil olacaq, əsas amallar ətrafında birləşəcəklər, çünki hamımızın bir Vətəni var - Azərbaycan!..

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 16 mart.- S. 7.**